


**Əliyev Əmrah Ürfət oğlu**

Əmrah Ürfət oğlu Əliyev 1997-ci il iyun ayının 4-də Tovuz rayonunun Dondar Quşçu kəndində anadan olub. Dondar Quşçu kənd tam orta məktəbində təhsil alıb.

2015-2016-cı illərdə müddətli həqiqi hərbi xidmətdə olub. Aprel döyüşlərində fədakarlıqla iştirak edib.

Azərbaycan Ordusunun əsgəri kimi könüllü olaraq Əmrah Əliyev 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı Füzulinin, Xocavəndin və Hadrutun azadlığı uğrunda gedən döyüşlərdə iştirak edib. Əmrah Əliyev noyabrın 8-də Xocavənd döyüşləri zamanı şəhidlik zirvəsinə yüksəlib.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Sərəncamları ilə çavuş Əliyev Əmrah Ürfət oğlu "Vətən uğrunda", “Xocavəndin azad olunmasına görə”, “Cəbrayılın azad olunmasına görə” və "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edilib.